# ƏHMƏD MAYIS OĞLU SALMANOV - 60



SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun geologiya və yataqların işlənilməsi üzrə direktor müavini, geologiya-mineralogiya elmləri doktoru Əhməd Mayis oğlu Salmanovun 2021-ci il iyun ayının 3-də 60 yaşı tamam olmuşdurur.

Salmanov Əhməd Mayis oğlu Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1984-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun "Geoloji-kəşfiyyat" fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir və təyinatla AMEA-nın Dərin Neft Yataqlarının Problemləri İnstitutunda əmək fəaliyyətinə başlamışdır.

1991-ci ildə "Yataqların işlənməsinin son mərhələsində neft hasilatının dinamikasının geoloji-riyazi modelləşdirilməsi və layların neftverməsinin artırılması üsullarının tətbiqinin effektivliyinin qiymətləndirilməsi" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1992-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasına müsabiqə yolu ilə işə qəbul edilmiş və 2007-ci ilin may ayınadək "Neft-qaz mədən geologiyası" kafedrasında dosent vəzifəsində çalışmışdır. 2007-ci ilin may ayından 2009-cu ilin iyul ayınadək Azərbaycan Dövlət Neft Şirkətinin Elmi Tədqiqatlar İnstitutunda elmi işlər üzrə direktor müavini işləmişdir. 2009-cu ildə "Neft yataqlarının səmərəli mənimsənilməsi yollarının geoloji-riyazi modellə əsaslandırılması" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və geologiya-mineralogiya elmləri doktoru adına layiq görülmüşdür. 2009-cu ildən hal-hazırda tutduğu vəzifədə çalışır.

Ə.M.Salmanovun məşğul olduğu əsas elmi istiqamətlər neft yataqlarının səmərəli mənimsənilməsi, işlənmənin son mərhələsində neft hasilatının dinamikasının proqnozu, geoloji-riyazi modelləşdirilmə, layların neftverməsinin artırılması üsulları kimi geniş şaxəli tədqiqatlarla əlaqədardır. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, Ə.M.Salmanov öz vəzifə öhdəliklərinə həmişə diqqət və məsuliyyətlə yanaşmış, öhdəsinə düşən işləri vaxtında və qüsursuz yerinə yetirmişdir. Özünə qarşı tələbkarlığı onun peşəkar bir mütəxəssis kimi püxtələşməsinə səbəb olmuşdur. Əhməd müəllm 120-yə yaxın elmi məqalənin, 4 monoqrafiya, 8 dərs vəsaiti və metodik göstərişin, bir xəritənin müəllifi, həmçinin bir çox Beynəlxalq konfransların təşkilatçısı və iştirakçısı olmuşdur. O, fəlsəfə üzrə bir neçə elmlər doktoru hazırlamışdır. Ə.M.Salmanov 2012-ci ildə "Azərbaycan Neftçi Geoloqları Cəmiyyəti"nin Prezidenti, 2013-cü ilin mart ayından isə Azərbaycan Respublikası Prezidenti yanında "Ali Attestasiya Komissiyası"nın ekspert komissiyasının üzvü seçilmişdir. 2007-ci ildən "Neft-qaz yataqlarının geologiyası, geofizikası, axtarışı və kəşfiyyatı" elmi-texniki şurasının bölmə sədridir. Əhməd müəllim bu gün də gənclik eşqi ilə çalışır, müstəqil Azərbaycan Respublikasının neft strategiyasının gerçəkləşməsində öz xidmətlərini əsirgəmir, gənclərə zəhmətsevərlik nümunəsi göstərir. Ə.M.Salmanovun əməksevərliyi və işgüzarlığı Respublika və SOCAR rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilmiş, dəfələrlə fəxri fərmanlarla təltif olunmuş, 2011-ci ildə isə "Tərəqqi" medalına layiq görülmüşdür.

Bütün neftçi geoloq və geofiziklər adından Əhməd müəllimi əlamətdar yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, xoşbəxtlik, elmi fəaliyyətində və şəxsi həyatında yeni-yeni uğurlar arzulayırıq!